# Ölməzliyə qovuşan şəhidimiz



**Bütün yüksəkliklərdən ucada dayanan bir zirvə var: Şəhidlik zirvəsi. Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur. Yalnız müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar yüksələ bilərlər bu uca zirvəyə.**

Belə insanlar ölmürlər, əksinə ölümləri ilə bir əbədilik qazanırlar. Onlar uca Yaradanın, Vətənin, millətin yolunda şüurlu surətdə canlarını fəda edən insanlardır. Xalq şairi Bəxtiyar Vahabzadə şəhidləri belə vəsf etmişdir:

...Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər!
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən göylərinə çəkdi şəhidlər.

İllər ötüb, qərinələr dolaşsa da, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, xatirələrinə dərin ehtiram bəslənilir.

Onları yetirib tərbiyələndirən, torpağı Vətənləşdirmək uğrunda haqq savaşına göndərən ata-analar isə xalqımızın başucalığı ünvanına çevriliblər.

**Azərbaycan gəncinin millətinə, dövlətinə və torpağına bağlılığının bariz nümunəsi, vətənpərvərliyi ilə gələcək nəsillərə örnək olan şücaətli oğullardan biri də Pərviz Sovet oğlu Şükürovdur. O, 1972 -ci il dekabrın 17-də Sumqayıtda dünyaya göz açıb. Orta məktəbi bitirdikdən sonra Ümumqoşun Komandirlər Məktəbinə daxil olub. Oranı bitirdikdən sonra Türkiyə Silahlı Qüvvələrində hərbi təlimlər keçib.**

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin əmri ilə Pərviz Şükürova hərbi leytenant rütbəsi verilib. Ağdamda yerləşən N saylı hərbi hissədə rota komandiri təyin olunub. Ağdamın kəndlərinin müdafiəsində, eləcə də Füzulinin kəndləri uğrunda döyüşlərdə cəsarətlə iştirak edib. Sağlam cüssəli, mərd qamətli bu gənc düşməndən qorxmayıb. Ölümün gözünə dik baxaraq1993-cü il oktyabrın 29-da Füzulinin Yuxarı Kürdmahmudlu kəndi istiqamətində gedən qeyri-bərabər döyüşlərdə şəhid olub. Ölümündən sonra Azərbaycan Bayrağı Ordeni ilə təltif olunub. Sumqayıt Şəhidlər Xiyabanında dəfn edilib.

Oğul itkisinə mətanətlə dözən atası, şəhər Veteranlar şurasının sədri Sovet Şükürov deyir ki, şəhidlər bizim həm nisgilimiz, kədərimiz, ürək ağrımız, həm də qürurumuz, vüqarımız, fəxrimiz, ölməzliyimiz, örnəyimizdir. İşıqlı xatirəsi qəlbimizdə məskən salan övladım Pərviz yaşasaydı hazırda 50 illik yubileyini keçirəcəkdik. İndi onun ruhu bir mahnıda olduğu kimi, Vətən göylərində azad gəzir.

Bəli, şəhidlərimizin arzularının bir çoxu artıq həyata keçibdir. Azərbaycan suverenliyini təmin edib, onların arzuladıqları müstəqil dövlətimiz qurulub. Ölkəmizin iqtisadi, hərbi gücü artıb. Respublikamız beynəlxalq birliyin layiqli üzvünə çevrilib. Vaxtilə imperiya ordusunun köməyi sayəsində ermənilərin əlinə keçən torpaqlarımız geri qaytarılıb, respublikamızın ərazi bütövlüyü təmin edilib.

**Vətən uğrunda canından keçən bütün şəhidlərimizə, o cümlədən Pərviz Şükürova Allahdan rəhmət diləyirik!**

**Gülnaz Səfərova, Sumqayıt şəhər Veteranlar təşkilatının sədr müavini**

Azad Azərbaycan.- 2022- ci il.- 22 dekabr.- S. 4.